Səfər təəssüratları



**Cəbrayıl və Zəngilan rayonlarına səfərimiz maraqlı məlumatların əldə edilməsi ilə yadda qaldı. Ötən yazımızda Cəbrayılın Əmirvarlı – Soltanlı düşmən səddinin yarılması ilə Xudafərin və ətraf ərazilərin ələ keçirilməsindən yazmışdıq. Əslində, bu sətirləri də o yazının məntiqi davamı hesab etmək olar. Çünki qəhrəmanlarımızın qeyd etdikləri kimi, məhz həmin səddin yarılması ilə Xudafərinə, Cəbrayıla və eyni zamanda, Zəngilana gedən yol açılıb. Zəngilan əməliyyatı Vətən müharibəsində ən qısamüddətli uğurlu əməliyyat kimi də tarixə düşdü. Əmirvarlı – Soltanlı, Xudafərin istiqamətində cəmləşən düşmənin ağlına da gəlməzdi ki, Azərbaycan Ordusu nə vaxtsa bu səddi keçəcək və Cəbrayıla, Zəngilana Zəfər yürüşü edəcək.**




# Azadlığının iki yaşı mübarək, Zəngilan!

Beləcə, çatırıq vaxtilə güllü-çiçəkli, bağlı-bağatlı yurdlarımızdan biri olan Zəngilana. Avropanın ən böyük, dünyanın isə ikinci çinar meşəsinin olduğu, bol sulu Araz, Həkəri, Bərgüşad çaylarının axdığı bu bölgəmizə gəlmək çoxdankı arzum idi. Ümumiyyətlə, işğal olunmuş bölgələrimizdə bir həqiqət düşüncəmə hakim kəsilir. Təxminən, 30 ilə yaxın bir müddətdə erməni vandallarının əlində qalasan, dağıdılıb talan edilməsən, təbii sərvətlərin daşına, satışa çıxarıla, bir sözlə, başdan-başa istismar edilməsən, amma hələ də öz təbii gözəlliyini, səfalı havanı, suyunu qoruyasan. Bu təravəti hiss etdirəsən. Zəngilanda bunun şahidi oldum. İllərdir daşının üstündə daş qoyulmadığı bu bölgəyə daxil olarkən bunların hamısını düşüncələrində bir kənara qoyub, öncə bu bölgənin təbii gözəlliklərindən həzz alırsan, havasını sinənə çəkib, suyunu içməyə tələsirsən. Elə bil torpaq da, yurd da anlayır ki, gələn onun sahibi, ən əziz adamıdır və ən yaxşı libasını əyninə geyinirmiş kimi səni qarşılayır. Allah bizə böyük səbir verib ki, bu illəri səbirlə gözləyə bilmişik. Çünki, atalarımız "Gec olar, güc olar!" deyiblər.

Fikrimdən bir sual keçdi: İlahi, bu bu cənnət guşələrsiz necə dözmüşük? Nə yaxşı ki, 2020-ci ilin 20 oktyabrında Azərbaycan Silahlı Qüvvələri düşməni bu yerlərdən qovdu, Ali Baş Komandan İlham Əliyev Zəngilan şəhərinin və bir sıra kəndlərinin azad edilməsi xəbərini xalqla paylaşmaqla, bu həsrətə birdəfəlik son qoydu.

Beləcə, axşama doğru gəlib çatdıq regionun ən innovativ kəndi sayılan Ağalıya. "Ağıllı kənd" sayılan Ağalının mərkəzini görəndə elə bildik ki, hansısa yeni salınan bir rayon mərkəzindəyik. Yeni tikililərlə, müasir avadanlıqlarla təchiz edilmiş enerji-kommunikasiya qurğuları, kəndi gözəlləşdirən park-bağ-fəvvarə sintezi, müasir evlər. Burada qaynayan həyat, demək olar ki, yer üzündən silinmiş bir kəndin iki il ərzində hansı sürətlə bu vəziyyətə gətirildiyini bizə əyan etdi.

DSX-nın qonaq evində gecələyib səhəri dirigözlü açdıq ki, gəldiyimiz yeri gözdolusu görə bilək, hərbçilərimizlə görüşək, onların keçdikləri şərəfli yol haqqında materiallar toplayaq. Yeri gəlmişkən, fürsətdən istifadə edərək səfəri yaxşı təşkil etdiyinə görə, bizə göstərilən diqqət və qayğıya görə Dövlət Sərhəd Xidmətinin rəhbərliyinə, qurumun məsul əməkdaşlarına da təşəkkürümüzü bildiririk. İş elə qurulmuşdu ki, jurnalistlərin informasiya əldə etməsi üçün heç bir çətinlik yox idi.

Səhər Zəngilan şəhərinin yaxınlığından keçərək Ağbənd–Bartaz istiqamətinə yola düşdük. Yol boyu kəndlərin xarabalıqlarını, dağılıb talan olunmuş damsız, divarsız evlərini gördükcə köks ötürürdük. Burada çox ağır döyüşlər getmişdi. Yuxarı qalxırdıq, qarşımıza hündür dağ silsilələri çıxırdı. Sözün düzü, Zəngilanda belə böyük dağ silsiləsinin olduğunu bilmirdim. Sən demə, daha çox aran, qismən isə dağətəyi bir bölgə kimi bildiyimiz Zəngilanın çətin, keçilməz dağlıq hissələri də var imiş. Məhz bu hissələrdə gedən döyüşlərlə Zəngilan bütünləşib və istər Azərbaycan–İran, istərsə də Azərbaycan – Ermənistan sərhədlərini bərpa edib. Bu barədə daha dəqiq məlumatları hərbçilərimizdən aldıq. Öncə general-mayor Misir Əliyev suallarımızı cavablandıraraq dedi:

– Vətən müharibəsində aldığımız əsas tapşırıq, İran – Azərbaycan dövlət sərhədinin 132 kilometrinin düşməndən azad edilməsi, həmçinin Ermənistan–Azərbaycan dövlət sərhədində strateji yüksəkliklərin düşməndən azad edilərək dövlət sərhədinin bərpa edilməsi idi. Bununla yanaşı, əməliyyatlar zamanı Zəngilan şəhəri azad edildikdən sonra bölmələrimiz Araz çayı boyunca hərəkətə başlamışlar. Orada irəlilədikcə İranda yaşayan soydaşlarımız tərəfindən böyük coşqu və mənəvi dəstək gördük. Doğrusu,





General-mayor Misir Əliyev



General-mayor Aqşin Məhərrəmov



Polkovnik-leytenant Teyyub Bayramov

bu fakt bütün bölmələrimiz üçün qürurverici olsa da, düşmənin yerimizi müəyyən etməsi baxımından təhlükəli idi. Hərəkətimiz düşmən tərəfindən sezilməsin deyə, Baharlı sərhəd zastavası istiqamətində dağlıq əraziyə – relyef baxımından çətin olan yerlərə doğru hərəkət etdik. Baharlı sərhəd zastavasından dağ boyu 6-7 kilometr hərəkət etdikdən sonra Bartaz istiqamətində düşmən tərəfindən qrad və minaatan atəşinə məruz qaldıq. Həmin ərazidə möhkəmlənərək, bizi vurmağa çalışan düşməni məhv etdik. Daha sonra tapşırığımızı tam icra etmək üçün Ağbənd sərhəd zastavasına tərəf hərəkət etdik. Yolboyu ön kəşfiyyat dəstələrimiz qarşıda düşmənin xeyli sayda qüvvəsinin cəmləşdiyini müşahidə etdilər və onların qarşıda gördüyümüz yüksəkliyə doğru hərəkət etdikləri barədə bizə məruzə edildi (general əli ilə həmin yüksəkliyi göstərir). Bölmələrimizi dərhal ön tərəfdə olan yüksəklikdə cəmləşdirdik. Qeyd edim ki, düşmən tərəfdə bizim hərəkət istiqamətimizi müşahidə etmək üçün iki kamera aşkar etmişdik. Bir kamera mənim göstərişimlə zərərsizləşdirildi. Digər kamera isə 1071 zirvəsində (qarşıdakı dumanlı dağı göstərir) idi. Onu sıradan çıxarmağa vaxtımız çatmadığından düşmənlə birbaşa döyüşə girdik. 6 saat yarım gedən döyüşdən sonra Ağbənd sərhəd zastavası azad olunaraq düşmən bölmələri tamamilə məhv edildi. Bu barədə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanına məruzə etmək şərəfi mənə nəsib oldu. Bununla Azərbaycan–İran dövlət sərhədinin 132 kilometri Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürüldü.

Beləcə, bu eşitdiklərimizlə Zəngilanın–Ağbənd istiqamətində ordumuzun hansı çətin və şərəfli bir döyüş yolu keçdiyi gözümüz önündə canlandı. Burada elə döyüşlər olub ki, sanki müharibə haqda yazılan kitabları oxuyurmuş, hərbi filmləri izləyirmiş kimi idik. Ancaq eşitdiklərimiz reallıq idi və ürəkaçan nəticə də göz önündə idi. Mütləq nə vaxtsa bu döyüşlərimiz barədə filmlər də çəkiləcək. Burada eşitdiklərimiz, sözün həqiqi mənasında, hərb tariximizin şanlı səhifələridir.

**Sərhəd Qoşunlarının Qərargah rəisi, general-mayor Aqşin Məhərrəmov da şiddətli döyüşlərin getdiyi "Üç nöqtə" əməliyyatından danışdı. Qəhrəmanımız göstərdiyi şücaətə görə Ali Baş Komandan tərəfindən "Zəfər" ordeninə layiq görülmüşdür. A. Məhərrəmov hadisələrin təfsilatı barədə bunları dedi:**

– Dövlət Sərhəd Xidmətinin arsenalında müasir silahları döyüş texnikası, avadanlıqlar, uçuş aparatları mövcuddur. Aydın məsələdir ki, bunun qarşısında düşmənin tab gətirməsi mümkünsüz idi. Hələ Aprel döyüşlərində zərbə pilotsuz uçuş aparatları düşmənə böyük itkilər yaşatmışdı. Vətən müharibəsində də biz bu PUA-lardan istifadə etdik. "Üç nöqtə" əməliyyatı ilə bağlı bildirmək istəyirəm ki, burada çevik qrupların böyük əziyyəti oldu. Belə ki, əvvəlcə ərazinin havadan kəşfiyyatını aparaaraq düşmənin yerləşməsi, canlı qüvvəsi, texnikası, atəş mövqeləri barədə məlumatlar əldə etdik. Biz bunları təhlil etdik və növbəti gün gecə saatlarında kiçik çevik qruplar tərəfindən sızma əməliyyatları həyata keçirdik. Raket-artilleriya divizyonu tərəfindən yaxınlaşmaqda olan düşmən texnikası sərrast atəşlərlə sıradan çıxarılır və zərbə PUA-ları vasitəsilə düşmən mövqelərinin dərinliklərində yerləşən artilleriya qurğuları dəqiq atəşlə məhv edildi. Bu, qürurverici idi. Çevik qüvvələrimiz tərəfindən ərazilərin işğaldan azad olunması hər birimiz üçün toy-bayram idi. Hazırda "Üç nöqtə" adlanan ərazi sərhədçilərimiz tərəfindən etibarlı şəkildə qorunur.

Zəngilan rayonu təbii sərvətlərlə də zəngindir. Burada Vejnəli qızıl yatağı vardır. 27 il ərzində vəhşicəsinə istismar olunmuşdur. Bu məsələyə dövlət başçısı da toxunaraq bildirib ki, Vejnəli qızıl yatağının erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. İndi həmin Vejnəli yatağı Azərbaycan xalqının, dövlətinin mülkiyyətidir.

Şübhəsiz ki, ermənilər buranı asanlıqla vermək istəməzdilər. Polkovnik-leytenant Teyyub Bayramov bildirdi ki, Vejnəli qızıl mədəni, arxasındakı yüksəkliklər, "Üç nöqtə" deyilən yerdə dövlət sərhədinin tam bərpası aldığımız əsas tapşırıqlardan biri oldu. Vejnəli qızıl mədəni çox kiçik bir heyətlə azad olundu. Daha sonra Sığırd yüksəkliyinə doğru irəlilədik. Təsəvvür edin ki, əməliyyat gecə vaxtı elə uğurla aparıldı ki, düşmən səhər açılanda gördü ki, başlarının üzərində Azərbaycan Bayrağı dalğalanır.

Olduqca qürurverici fikirlər, çıxışlar eşitdik və bundan sonra hərbçilərimizin müşayiəti ilə Bartaz silsiləsinə qalxdıq. Bartaz Zəngilanda kənddir. Lakin eyniadlı dağ da mövcuddur. Biz həmin dağa qalxdıq. Ara-sıra meşələr görünür, daha da yuxarı qalxdıqca buludlar bizi əhatələyirdi. Doğrusu, buludların yuxarıdan göründüyünü yalnız təyyarədə izləmişdim. Lakin ilk dəfə idi ki, yerdə ola-ola buludları ayaq altında, bizdən aşağıda müşahidə edirdim. Bartaz dağları başdan-başa bulud topalarının sığınacağı idi. Beləcə, 2269 metr yüksəklikdə yerləşən postumuza qədəm qoyduq. Üçrəngli bayrağımız düşmənə göz dağı kimi dalğalanırdı. İnanılmaz mənzərə idi. Çoxumuzun alınmaz qala hesab etdiyi bu başıdumanlı, sərt havalı zirvələrdə indi əsgərlərimiz mətinliklə keşik çəkir, düşməni qarabaqara izləyirlər. Regionun ən hündür nöqtələrindən birini ziyarət etdikdən sonra sərt aşırımlarla, daşlı-kəsəkli yollarla dağlardan enərək Zəngilan şəhərinin mərkəzi hissəsinə çatdıq. "Əlidolu" qayıdırdıq. Əlimizdə hərbçilərimizin qəhrəmanlıqlarından bəhs edən müsahibələr, çəkilişlər, fotolar. Bir sözlə, oxucu üçün bol informasiya…

Beləliklə, Zəngilan rayonuna səfərimizdə bu cür həyəcanverici və heyranedici təəssüratlarla qarşılaşdıq. Rayonun aran hissəsində yerləşən Zəngilan rayonunun mərkəzinin nə qədər etibarlı, təbii və canlı əhatədə olduğunu gördük. Hə, bir məsələni də mütləq qeyd edim ki, Zəngilanı və rayonun digər ərazilərini tam gəzə bilməsək də, getdiyimiz yerlərdə çox güclü tikinti-quruculuq işlərinin şahidi olduq. Hətta eşitdik ki, yaxın zamanda Zəngilan Hava Limanı istifadəyə veriləcək. Bir yerdə hava limanı tikilib qurtarıbsa, orada işlərin hansı sürətlə aparıldığını təsəvvür etmək çətin deyil. Əmin olduq ki, iki il ərzində Ağalını cənnətə çevirən dövlətimiz, ən qısa zamanda Zəngilanı da bütünlüklə abadlaşdıracaq.

**Anar TURAN,**
**"Xalq qəzeti"**
**Bakı – Zəngilan – Bakı**